Azərbaycan Arxeologiyası Volume 25 № 2 2022, 35-48
Khazar University Press DOI: 10.5782/2218-0346.2022.25.2.35

# Lələtəpə neolit dövrü yaşayış məskənində aparılmış arxeoloji tədqiqatlar

**Xəqani Alməmmədov**
AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu
xoyski@mail.ru

**Açar sözlər:** Cənubi Qafqaz, Qarabağ neoliti, Lələtəpə neolit dövrü yaşayış məskəni, Araz vadisi, Füzuli rayonu, Qarabağ neolit-eneolit ekspedisiyası.

Lələtəpə neolit dövrü yaşayış yeri Füzuli rayonunun Horadiz kəndindən 6 km cənub-şərqdə, əkin sahələri içərisində yerləşir (Şəkil 1.1). Hündürlüyü 6,4 m, sahəsi 0,9 ha olan təpə formalı qədim yaşayış yerinin səthi və ətrafları I Qarabağ müharibəsi zamanı dağıldılmışdır (Şəkil 1.2).

Abidə 2019-cu ildə Qarabağ neolit-eneolit ekspedisiyasının apardığı arxeoloji kəşfiyyat işləri zamanı aşkar edilərək qeydiyyata alınmışdır (4, s.7). 2020-ci ilin çöl-tədqiqat mövsümündə arxeoloji tədqiqat işlərinin başlanğıcı olaraq təpə ərazisində topoqrafiq ölçmə işləri aparılmış, ərazinin topoplanı hazırlanmış və onun səthi hər biri 64 kv.m (8x8m) olmaqla kvadratlara bölünmüşdür (Şəkil 2). Yuxarıda da qeyd edildiyi kimi təpənin demək olar ki, bütün səthi dağıdıldığından qazıntı işlərinin mərkəzi hissədən deyil, təpənin cənub-qərb tərəfdən başlanması məqsədəuyğun hesab edildi. Qazıntıya, şərti olaraq adlandırılmış F6 və E6 kvadratlarında başlandı və məlum oldu ki, üst qat təxminən 30-50 sm dərinliyində dağıdılmışdır. Yerli əhalinin verdiyi məlumata görə keçən əsrin 50-60-cı illərində təpənin üstündə pambıq qapanı (tərəzisi) qurulmuş və pambıqçıların istirahət yeri kimi istifadə edilmişdir. Sonralar burada üzüm bağları salındığı vaxt təpənin səthi dərin şumlanmışdır. Lakin, təpə ərazisində üzüm tinglərinin becərilməsi mümkün olmadığından ərazi müharibəyə qədər boş qalmışdı. Ən üst təbəqənin dağılması burada məhz, üzüm plantasiyası salındığı zaman baş vermişdir (5, s.5-6). Hər biri 16 kvadratmetr olan dörd sahədə aparılan qazıntı zamanı bizim eradan əvvəl VI minilliyə aid oval, dairəvi quruluşda çiy kərpicdən 3 tikinti qalığı və həyətin divarının bir hissəsi aşkar edilib. Mərkəzi hissədə ibadət yeri – çiy kərpiclə

pilləli formada işlənmiş platforma yerləşir (Şəkil 3.1). Ondan cənubda diametri 3,3 metr, hündürlüyü 1,5-2 metr olan dairəvi bina yaşayış üçün istifadə olunub (Şəkil 3.2). Yaşayış üçün istifadə edilmiş tikili qalığının müxtəlif səviyyələrdə üç döşəməsi müəyyən edilmişdir ki, bu döşəmələr də oxra əlavə edilmiş palçıqla suvanmışdı. Burada iki təsərrüfat küpü, daşdan və sümükdən müxtəlif təyinatlı alətlər, ocaq qalıqları və tikili qalığının üçüncü döşəməsinin altında bükülü halda dəfn edilmiş uşaq skeleti aşkar edilib (5, s.11-14).

Lələtəpə abidəsinin ən maraqlı xüsusiyyəti onun məzarlığı ilə bağlıdır. Belə ki, Azərbaycan ərazisində ilk dəfədir ki, insanların neolit dövründə müəyyən ayinlərin icra edildiyi ayrıca məzarlıqda dəfn edilməsi adətinə burada təsadüf olunmuşdur. Azərbaycanda neolit dövrü məskənlərinin arxeoloji tədqiqatı zamanı bir çox abidədə qəbirlər aşkar edilmişdir. Bu abidələr I Kültəpə (12, s.446; 17, s.168-169), Çalağantəpə (19, s.6-11; 20, s.13-19; 21, s.10-15; 22, s.13-14; 18, s.11; 17, s.50; 14, s.461-471), Əliköməktəpə (8, s.23-24; 17, s.168-169), Polutəpə (7, s.39; 13, s.56-57, şək.5), İsmayılbəytəpə (3, s. 87-96, şək.8), Məntəştəpə (10, s.381-382) və Mil düzündə yerləşən MPS 103 (10, s.379-380), MPS 4 (10, s.380), Dölləktəpə (10, s.380) məskənləridir. Bütün bu abidələrdə insanlar evlərin döşəmələri altında, divarlar arasında, evlərin girişində dəfn olunmuşdular. Aşkar edilmiş qəbirlərin əsas hissəsi uşaqlara aiddir. İsmayılbəytəpə neolit dövrü abidəsində kremasiya adəti də izlənilmişdir (1, s.155).

Məzarlıq F6 kvadratının qərb hissəsində aşkar edilib və 2020-ci ildə təxminən 8 kv. metr sahədə 10 skelet müəyyən edilərək təmizlənmişdir. Skeletlər bükülü vəziyyətdə müxtəlif istiqamətdə qoyulmuşdur. Burada oval quruluşlu qəbir çalaları oxra əlavə edilmiş palçıqla suvanmış, dəfn edilən insanın altına həsir salınmış, üzəri oxra və sıyıq palçıqla örtülmüşdür (Şəkil 4). Dəfn olunan insanların yanında pastadan və daşdan muncuqlar, sümükdən hazırlanmış bəzək əşyaları və (əsa başlığı) skipetr aşkarlanıb. 2020-ci ilin sentyabr ayında II Qarabağ müharibəsinin başlanması səbəbindən Lələtəpədə arxeoloji qazıntı işləri yarımçıq qalmışdı. 2021-ci ilin çöl-tədqiqat mövsümündə arxeoloji qazıntı işləri bərpa edilmişdir. Qazıntılar ilkin olaraq məzarlıq hissədə aparılmış və 2 qəbir (7 və 8 saylı) təmizlənmişdir. Oval quruluşa malik 7 saylı qəbir 2020-ci il mövsümündə aşkar edilmişdi, lakin hərbi əməliyyatlar səbəbindən onun təmizlənməsi yarımçıq qalmış və yerində konservasiya edilmişdi. Aşkar edilmiş sümüklərin vəziyyətinə görə qəbirdə müxtəlif vaxtlarda iki adamın dəfn edildiyi müəyyən edilib. Şimal-qərb, cənub-şərq istiqamətində olan qəbir çalası oval şəkillidir və burada hər hansı qəbir

ləvazimatına təsadüf edilməyib. Sümüklər və qəbrin döşəməsi buraya səpilmiş oxranın təsirindən al qırmızı rəng almışdı (6, s.17-18).

8 saylı qəbirdə isə müxtəlif vaxtlarda 4 adam dəfn edilmişdir. Burada da skeletlərin vəziyyətini tutmaq mümkün olmamışdır. Sümüklər qarışdırılmış və pis saxlanmışdı. Ən üstə, sonuncu dəfn edilmiş azyaşlı (ehtimal ki, südəmər) uşağın sümükləri qismən salamat qalıb. Bu sümüklərin yanında pastadan hazırlanmış muncuqlar və bir miniatür saxsı qab aşkarlanıb. Qəbrin alt hissəsində isə obsidiandan hazırlanmış tiyə, ağ mərmərdən hazırlanmış toppuz fraqmenti və sümük əsa başına təsadüf edilib (6, s.18-19).

Məzarlığın qərb istiqamətində davam edib-etməməsini yoxlamaq üçün qazıntı sahəsinə eni 2 m, uzunluğu isə 4 m olan yarımkvadratlar (F6(3) və E6(1)) əlavə olundu. Əlavə edilmiş yarımkvadratlarda aparılan qazıntılar zamanı uzunluğu 3,4 m, eni 40-60 sm olan möhrədən inşa edilmiş divar qalığı aşkar olundu. Hündürlüyü 35-80 sm arasında dəyişən divar şimal-cənub istiqamətindədir, bir qədər şərqə meyllənir. Divarın təyinatına gəlincə onu deyə bilərik ki, bu divar qalığı həyətin qərb divarıdır və qəbirlər bu divardan şərqdə, yəni həyətyanı sahədə salınmışdır (6, s.19-20).

Bununla da, qazıntı sahəsində aşkar edilmiş tikililərin funksiyası, tikinti dövrləri haqqında tam məlumat almaq mümkün oldu. Belə ki, biz qazıntılar nəticəsində Lələtəpədə erkən oturaq məskunlaşmanı bir istiqamət üzrə (cənub radiusu boyunca) modelləşdirə bildik. Bu istiamətdə aşkar etdiyimiz tikili qalıqları və digər artefaktlar bir ailə təsərrüfatna aid kompleksdir. Lələtəpənin erkən sakinləri təpənin torpağından hazırlanmış kərpicdən inşa edilmiş dairəvi evlərdə yaşamışlar. Həyətin mərkəzində çiy kərpicdən pilləli ibadət yeri - platforma tikmişlər. Elmdə belə bir fikir var ki, Mesopotamiya ərazisində yayılmış "zikkurat"lar bu tipli ibadət yerlərinin əsasında yaranmışdır. Sakinlər burada ritual ayinlərini icra edərək vəfat etmiş ailə üzvlərini öz həyətlərində, ailə məzarlığında dəfn etmişlər. Həyətlərin ətrafı isə möhrə və kərpic divarlarla möhkəmləndirilmişdir. Təsərrüfat quyularına alternativ olaraq iri təsərrüfat küplərindən istifadə olunmuşdur.

2021-ci ildə aparılan qazıntılar zamanı daha aşağı səviyyədə qazma tipli yaşayış evinin bir hissəsi aşkar edilmişdir. Bu qazmanın kərpic tikililərlə xronoloji və mədəni baxımdan necə bağlılığı burada qazıntı işlərinin tam başa çatmaması səbəbindən bizim üçün hələ məlum deyil. Amma, bir şeyi qeyd etmək istərdim ki, qazma materikdə salınmış (şimal divarına əsasən) və güman ki, daha erkən tikinti mərhələsinə aiddir. Abidə memarlıq xüsusiyyətlə-

rinə görə Cənubi Qafqaz neolit dövrü memarlığı ənənələrini özündə əks etdirir. Burada da əsasən dairəvi planlı tikililər üstünlük təşkil etsə də, düzbucaqlı planlı və yarımqazma tikililər də mövcuddur.

Lələtəpədə aşkar edilmiş saxsı qab nümunələri (Şəkil 5) öz üstün keyfiyyətilə Qarabağın digər həmdövr abidələrindən aşkar edilmiş anoloji materiallardan fərqlənir. Belə ki, qabların 95%-dən çoxu əla bişirilmişdir. Forma və naxışlanma üsullarında da fərqlər nəzərə çarpır. Basma (impresso), qabartma naxışlı nümunələr üstünlük təşkil edir, boya naxışlı fraqmentlərə də təsadüf edilmişdir. Qarabağa xas ağız kənarı daxilə doğru əyilmiş, tutacaq kimi istifadə edilən nümunələrlə yanaşı, Muğan, Araz vadisi və Qars ovalığı həmdövr abidələrinə xas iri yarımşar formalı qulpları olan fraqmentlər də mövcuddur. Qabların bir çoxunun oturacağında həsir izləri olduğu müşahidə olunur.

Daş alətlərin çoxluğu abidəni fərqləndirən cəhətlərdən biridir. Qazıntılar zamanı müxtəlif təyinatlı daşdan hazırlanmış alətlər aşkar edilmişdir ki, bu alətlər yerli xammaldan hazırlanmışdı. Kəsici alətlər əsasən obsidiandan hazırlansa da, çay daşından hazırlanmış nümunələrə də təsadüf olunur. Qazma tipli tikili qalığının döşəməsində qayıq formalı dəndaşı və sürtgəci, ilə dibək daşı birgə tapılmışdır. Daş mənbələrinin yaxın və əlçatan olması Lələtəpənin erkən oturaq sakinlərinin sapand daşlarını gildən hazırlamaq ehtiyacından azad etmişdir. Heç təsadüfi deyil ki, qazıntılar zamanı bir ədəd də olsun gildən hazırlanmış sapand daşına təsadüf edilməmişdir. Burada da İsmayılbəytəpə neolit dövrü yaşayış məskəninin qazıntıları zamanı olduğu kimi sapand daşlarının ehtiyat üçün saxsı qabda saxlanılması adəti izlənilmişdir (2, s.61).

Sümük alətlər elə də çoxluq təşkil etmir və onların hazırlanmasında əsasən, iri və xırdabuynuzlu heyvanlar və quş sümüklərindən istifadə olunmuşdur (Şəkil 6). Sümük alət dəsti qaşov, biz və quşların qanad sümüyündən hazırlanmış boruyabənzər alətlərdir ki, bunlara da həm tikili qalıqlarında, həm də qəbirlərdə təsadüf olunmuşdur. Qaşov və bizlər xırdabuynizlu heyvan sümüklərindən hazırlanıb. Sümük alətlər işərisində ən maraqlı nümunələr iribuynuzlu heyvanın bud sümüyündən hazırlanmış əsa başlarıdır ki, bunlara da yalnız qəbirlərdə təsadüf edilmişdir. Ehtimal ki, bu aksessuar onu daşıyan şəxslərin yüksək statusunun göstəricisi idi. Fikrimizin sübutu kimi əsa başlarının aşkar edildiyi qəbirlərin quruluşu, dəfnetmə adəti və “zəngin” qəbir ləvazimatı baxımından digərlərindən fərqlənməsini göstərə bilərik.

Lələtəpə neolit dövrü yaşayış yerində aşkar edilmiş skeletlər ilkin olaraq öyrənilmiş və onlar haqqında bəzi ümumiləşdirilmələr (cins, yaş, bəzi patologiyalar) aparılmışdır. Skeletlərdən götürülmüş nümunələrin laborator şəraitdə hərtərəfli formada tədqiqi Türkiyədə, Hacettepe Universitetinin Antropologiya bölümündə aparılır. Skeletlərdən götürülmüş nümunələr üzərində aparılacaq DNT analizlərinin nəticəsi olaraq Lələtəpə sakinlərinin genetik bağlılıqları, irsi və bakterioloji xəstəlikləri və qida rasionları öyrəniləcəkdir. Aparılacaq DNT çalışmaları ümumilikdə neolit dövründə Qarabağ ərazisində baş vermiş etnik-mədəni dəyişikliklər və xüsusən də Cənubi Qafqazda erkən istehsal münasibətlərinin təşəkkülündə etnik və ya mədəni miqrasiyanın rolunun öyrənilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

Lələtəpə neolit dövrü yaşayış məskəninin daha dəqiq xronoloji dövrünün müəyyənləşdirilməsi üçün C14 analizləri aparılmamışdır. Lakin aşkar edilmiş maddi-mədəniyyət nümunələrinin digər həmdövr abidələrin materialları ilə müqayisəli təhlili bizə abidənin dövrü haqqında ümumiləşdirmələr aparmaq imkanı verir. Lələtəpə yaşayış məskəni Araz vadisində, Kiçik Qafqazla Araz çayı arasında olan dar keçiddə yerləşir. Şərqi Anadolu-Cənubi Qafqaz arasında mövcud əlverişli keçidlərdən bir olan bu ensiz vadi heç şübhəsiz ki, neolit dövründə də aktual olmuş, cənubdan şimala və ya əksinə etnik-mədəni impulsların ötürüldüyü başlıca keçid olmuşdur. Bu keçidin tam mərkəzində yerləşən Lələtəpə Qarabağın neolit ənənələrilə yanaşı, Naxçıvan və Qars ovalığı son neolit dövrü yaşayış məskənləri olan I Kültəpə (15, s.145-149; 11, s.86-98), Naxçıvantəpə (16, s.186-191) və Aknaşen-Xatunarxla (9, s.185-205) paralel oxşarlıqlara malikdir. Bu oxşarlıqlar əsasən, saxsı və daş məmulatı, memarlıqda daha aydın seçilir. Maddi-mədəniyyət nümunələri arasında bu oxşarlıq bizə müqayisəli təhlillər əsasında Lələtəpə yaşayış məskəninin dövrünü təyin etmək imkanı verir. Qars ovalığı ( Aknaşen-Xatunarx), Naxçıvan (I Kültəpə, Naxçıvantəpə), Qarabağın neolit dövrü abidələrindən (İsmayılbəytəpə, Buruqtəpə) əldə edilmiş nümunələr əsasında aparılmış C14 analizləri bu bölgələrdə lokal neolit mədəniyyətlərinin e.ə. VII minilliyin sonuncu rübündən, VI minilliyin sonlarına kimi təxminən min ildən artıq bir dövrdə mövcud olduğunu sübut edir. Yuxarıda da, qeyd edildiyi kimi Lələtəpə yaşayış məskəni coğrafi baxımdan Naxçıvan və Qarabağı birləşdirən "körpü" (Zəngəzur dəhlizi) üzərində yerləşir, və mədəni-iqtisadi xüsusiyyətlərinə görə hər iki sosial-mədəni məkanın özəlliklərini özündə əks etdirir. Lələtəpənin yuxarıda adları sadalanan abidələrlə daşıdığı oxşar xüsusiy-

yətlər bizə bu yaşayış məskəninin e.ə.VI minilliyin II və III rüblərində mövcud olduğu fikrini irəli sürməyimizə əsas verir. Abidənin dəqiq xronologi çərçivəsinin təyin edilməsi gələcəkdə aparılacaq C14 analizlərinin nəticələrinə əsasən mümkün olacaqdır.

Lələtəpə neolit dövrü yaşayış məskəninin arxeoloji tədqiqi Qarabağ ərazisində lokal neolit mədəniyyətinin təşəkkülü, inkişafı prosesinə Anadolu və İran yaylası kimi daha mütərəqqi mədəni mərkəzlərin bu və ya digər şəkildə təsirlərinin öyrənilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

## Ədəbiyyat


1. Alməmmədov X.İ. Cənubi Qafqaz neolitində yeni sosial-mədəni məkanın- Qarabağın erkən oturaq əkinçi mədəniyyətinin təşəkkülü. Azərbaycan arxeologiyası, Cild: 21 Say: 1 2018, s. 152-176.
2. Alməmmədov X.İ, Quluzadə N.V. “Qarabağ neolit-eneolit ekspedisiyası”nın 2013-2014-cü illərdə apardiği arxeoloji tədqiqat işləri. Ağdam rayonu, Azərbaycanda arxeoloji tədqiqatlar 2013-2014 , Khazar University Press, 2015, s. 60 - 74.
3. Alməmmədov X.İ., Quluzadə N.V. “Qarabağ neolit-eneolit ekspedisiyası”nın 2015-2016-cı illərdə Qarabağ düzənliyində apardiği arxeoloji tədqiqat işləri. (Ağdam rayonu) // Azərbaycanda arxeoloji tədqiqatlar 2015-2016, Khazar University Press, 2017, s.87-95.
4. Alməmmədov X.İ. “Füzuli arxeoloji ekspedisiyası”nın 2019-cu ildə apardiği çöl-tədqiqat işlərinin hesabatı. 20 səh.
5. Alməmmədov X.İ. “Qarabağ neolit-eneolit ekspedisiyası”nın 2020-ci ildə apardiği arxeoloji tədqiqat işlərinin hesabatı. 37 səh.
6. Alməmmədov X.İ. “Qarabağ neolit-eneolit ekspedisiyası”nın 2021-ci ildə apardiği arxeoloji tədqiqat işlərinin hesabatı. 37 səh.
7. Axundov T., Alməmmədov X., Mahmudova V., Vəliyev S., Rəhmanov A. Muğanda neolit-eneolit dövrünün öyrənilməsi və “Muğan neolit-eneolit ekspedisiyası”nın gördüyü işlər haqqında // Azərbaycanda arxeoloji tədqiqatlar 2009, Af Poliqraf, 2010, s. 38 – 44.
8. Mahmudov F.R., Nərimanov İ.H. Muğan arxeoloji dəstəsinin 1978-1979-cu illərdə tədqiqatlarının hesabatı. AMEA AEAİ EA: inv. H-465, 25 s., 26 şək., 1 plan
9. Ruben S. Badalyan, Armine A. Harutyunyan, Christine Chataigner, Françoise le Mort, Jacques Chabot, Jacques Elie Brochier, Adrian Balasescu, Valentin Radu, Roman Hovsepyan. The settlement of Aknashen-Khatunarkh, a neolithic site in the Ararat plain (Armenia): Excavation results 2004-2009. TÜBA-AR 13 / 2010, pp.185-218.
10. Modwene Poulmarc’h, Laure Pecqueur, Bertille Lyonnet, Barbara Helwing. New Data on Neolithic and Chalcolithic Single burials from the Mil Plain Sites and from Mentesh Tepe in the Southern Caucasus: an Archaeo-Anthropological Approach // The Kura Projects New Research on the Later Prehistory of the Southern Caucasus. Archaologie in İran und Turan, band 16, pp.379-383.
11. C. Marro, V. Bakhshaliyev, R. Berthon and J. Thomalsky. New light on the Late Prehistory of the South Caucasus: Data from the recent excavation campaigns at Kültepe I in Nakhchivan, Azerbaijan (2012-2018). Paléorient, vol. 45.1, p. 81-113 © CNRS ÉDITIONS 2019..

12. Абибуллаев О.А. Раскопки холма Кюль-Тепе близ Нахичевани в 1955 г // МИА СССР, 1959, № 67, с. 431-453.
13. Ахундов Т.И., Махмудова В.А., Рамазанлы Г.Х., Рахманов А.А., Велиев С.С., Тагиева Е.Н., Гурбанов Т.Р. Работы «Муганской неолит-энеолитической экспедиции» в 2013 году // Azərbaycanda arxeoloji tədqiqatlar 2013-2014, Bakı, "Xəzər Universiteti" nəşriyyatı, 2015, s. 54-59.
14. Ахундов Т.И. У Истоков Кавказской Цивилизации. Неолит Азербайджана. Книга вторая. Памятники Гарабагского неолита. Баку, 2017, 916 стр.
15. Бахшалиев В. Б. Археологические раскопки на поселении Кюльтепе I. Российская археология, 2022, № 1, с. 139–152.
16. Бахшалиев Э.В., Бахшалиев В.Б. Неолитический слой поселения Нахчыван тепе. Российская археология, 2021, № 2, с. 186–196.
17. Нариманов И.Г. Культура древнейшего земледельческо-скотоводческого населения Азербайджана (эпоха энеолита IV-VI тыс. до н.э.). Баку: Элм, 1987, 260 с.
18. Нариманов И.Г, Азимов М.С. Энеолитическое поселение Чалагантепе. из серии «Памятники материальной культуры Азербайджана». Баку: Элм, 1985, 12 с.
19. Нариманов И.Г. Отчет об археологических раскопках на поселение Чалагантепе 1980 г // AMEA AEAİ EA: № O-261, 25 səh., 12 tablo.
20. Нариманов И.Г. Отчет I отряда Мильско-Карабахской археологической экспедиции за 1981 г // AMEA AEAİ EA: № O-290, 24 səh., 13 tablo.
21. Нариманов И.Г. Отчет I отряда Мильско-Карабахской археологической экспедиции за 1982 г // AMEA AEAİ EA: № O-307, 30 səh., 21 şəkil.
22. Нариманов И.Г., Азимов М.С. Отчет за 1983 г. I отряда Мильско-Карабахской археологической экспедиции // AMEA AEAİ EA: № O-332, 22 səh., 19 tablo.

## Summary

### Archaeological research of the Neolithic settlement of Leletepe

**Khagani Almammadov**

The article is a brief report on the preliminary results of archaeological work at the Leletepe settlement. Today, this settlement is the southernmost Neolithic monument found on the territory of Garabagh. It is located 6 km southeast of the town of Horadiz, Fuzuli region. The height of the monument, preserved in the form of a hill (tepe) is 6.4 m, the surface area is 0.9 ha. Its surface and adjacent areas were destroyed during the First Garabagh War. In 2020-2021, research was carried out on this monument, an area of 80 $m^2$ was excavated and researched by archaeologists. As a result of the archaeological excavations, the remains of three (rectangular, oval and rounded shapes) buildings built of mud brick and part of the wall (western and southwestern) enclosing the courtyard were discovered. In the central part of the excavated area, there is a stepped adobe platform, rounded in plan, which we conventionally called “ziggurat”. To the south of it there was a residential building of a rounded shape, 3.3 m in diameter and 1.5-2 m of preserved height. The most interesting discovery in the settlement is the burial ground. In the western part of square F6, on an area of 8 $m^2$, the remains of 14 burials were found. The skeletons were placed, in a crouched position, in oval recesses smeared with clay mixed with ochre and covered with a mat. On top they were covered with ochre and liquid clay. The orientation is different. In addition, during the excavations, bone and stone tools, fragments of clay vessels, etc. were found, reflecting the life and economy of the inhabitants of the Leletepe settlement. The settlement of Leletepe is dated to the 1st half of the 6th millennium BC. In terms of topography, architecture and discovered artifacts, it differs from the currently known synchronous Neolithic sites. Further study of this monument is important for understanding many aspects of ethno-cultural and economic ties between the Caucasus, Anatolia and the Iranian Highlands during the Neolithic period.

**Key words:** South Caucasus, Garabagh Neolithic, Leletepe Neolithic settlement, Araz Valley, Fizuli region, "Garabagh Neolithic-Eneolithic Expedition".


## Резюме

### Археологические исследования неолитического поселения Лелетепе

**Хагани Алмамедов**

Статья представляет собой краткий отчет, посвященный предварительным результатам археологических работ на поселении Лелетепе. На сегодняшний день, это поселение, самый южный неолитический памятник, выявленный на территории Гарабага. Оно расположено в 6 км к юго-востоку от города Горадиз, Физулинского района. Высота памятника, сохранившегося в виде холма-тепе, 6,4 м, площадь поверхности 0,9 га. Его поверхность и прилегающие участки разрушены во время Первой Гарабагской войны. В 2020-2021 годах на этом памятнике были проведены исследования, археологически раскопан участок площадью 80 м.кв. В результате проведенных археологических раскопок были обнаружены остатки трёх (прямоугольной, овальной, округлой форм) строений сооруженных из сырцового кирпича и часть (западная и юго-

западная) стены ограждающей двор. В центральной части раскопанного участка, расположена округлая в плане ступенчатая глинобитная платформа, условно названная нами «зиккурат»ом. К югу от него находилось жилое строение округлой формы, диаметром 3.3 м и сохранившейся высотой 1,5- 2 м. Наиболее интересным открытием на поселении является могильник. Так, в западной части квадрата F6, на площади в 8 кв. м., были обнаружены останки 14-ти погребённых. Покойники были положены, в скорченном положении, в овальные выемки обмазанные глиной с примесью охры и покрытые циновкой. По верху они были порыты охрой и жидкой глиной. Ориентация различна. Помимо указанного, во время раскопок были обнаружены костяные и каменные орудия труда, фрагменты глиняных сосудов и прочее, отражающее быт и хозяйство обитателей поселения Лелетепе.

Поселение Лелетепе датировано I половиной VI тысячелетия до н.э. Оно по топографии, архитектуре и обнаруженным артефактам, отличается от, известных на сегодняшний день, синхронных неолитических памятников. Дальнейшие изучения этого памятника важно, для осмысления многих сторон этнокультурных и экономических связей между Кавказом, Анатолией и Иранским нагорьем, в эпоху неолита.

Ключевые слова: Южный Кавказ, Гарабагской неолит, Неолитическое поселение Лелетепе, Аракская долина, Физулинский район, "Гарабагская неолит-энеолитическая экспедиция"




**1.** Lələtəpə neolit dövrü yaşayış məskəninin yerləşmə mövqeyi



**2.** Abidənin ümumi görünüşü

**Şəkil 1.**




**Şəkil 2.**




**1.** "Zikkurat" formalı tikili qalığı (İbadətgah)




**2.** Dairəvi planlı tikili qalığı (Yaşayış evi).

**Şəkil 3.**




**Şəkil 4.** Məzarlıq ərazisində aşkar edilmiş 3 saylı qəbir.



**Şəkil 5.** Lələtəpə neolit dövrü yaşayış məskənindən aşkar edilmiş saxsı qab fraqmentlərinin qrafiq təsviri.




**Şəkil 6.** Sümük alətlər